# İSTEDADIN PARLAQ IŞIĞINDA

Hər bir tanıdığımız istedad həyatın təkrarsız rəngidir. Birmənalı demək olar ki, istedadlılarsız cəmiyyət yerində sayardı. Düşüncələr hərəkətdən qalardı. Xüsusilə, həyatı dəyişən, cəmiyyətə təsir göstərmək gücündə olan kəşflər və ixtiralar məhz istedadın bəhrəsidir.

İstedadları vaxtında görmək, tanımaq, onların həyatı üçün məsuliyyət daşımaq cəmiyyətin ən ümdə vəzifəsidir. Təsadüfi demirlər ki, istedad cəmiyyətin sərvətidir. Xalqın ümumi xəzinəsinə mənsubdur.

Poliqrafiya sahəsində fəaliyyətə başladığım ilk günlərdən bəri ən müxtəlif təbiətli, elmin və sənətin ayrı-ayrı sahələrində qeyri-adi fitri imkanlara malik çox adamlarla görüşmüşəm. Əlbəttə, onların arasında yaşlılar da olub, cavanlar da, lap elə gənclər də. Ancaq sözün həqiqi mənasında, hələ yeniyetməlik yaşına çatmamış, əslində həqiqətən uşaq olan istedadlar da görmüşəm. Onların özlərini ifadə etmək imkanları eyni cür olmur. Bir çoxu düzgün istiqamətləndirilməyəndə, vaxtında istedadının qədri bilinməyəndə inkişafdan qalır, bəzən də yollarını dəyişirlər. İstedadını göstərə biləcəyi sahə bir tərəfdə qalır, tamam başqa sahəyə yönəlirlər.

Zənnimcə, birinci növbədə istedadı görmək, tanımaq və onu zəhmətə alışdırmaq, zəhmətdən qorxmamaq hisslərini təlqin etmək əsas şərtdir.

Belə istedadlardan biri də Sevindik Nəsiboğludur. Onu hələ 3 il əvvəldən tanımışam, onda heç 11 yaşı da yox idi. Mən tanıyanda artıq kitabları çap olunmuşdu və əsasən şeirlərlə özünü ifadə edirdi.

Etiraf etmək lazımdır ki, bizim "Kredo" qəzeti (mən də bu qəzetin redaksiya heyətinin üzvüyəm və əsas müəlliflərdən biri kimi həmin qəzetdə müntəzəm çıxış edirəm)özünü tapmağa çalışan gənclərə qucaq açıb, onlara meydan verib. Əgər belə demək mümkünsə, belə bir uğurlu tale də tanrının bəxş etdiyi fitri istedadı ilə sözə gəlmiş Sevindik Nəsiboğluna qismət olub. Artıq 3 ildir ki, Sevindik Nəsiboğlu ardıcıl olaraq "Kredo" qəzetində yazıları ilə çıxış edir. Mənim rəhbərliyimlə bizim mətbəədə nəşr olunmuş kitablarında onun mənəvi boy artımını müşahidə etmək qəlbimi fərəh və iftixar hissi ilə doldurur.

Sevindik Nəsiboğlunu tanıtmaq üçün onun həyat yolunu göstərən faktlara keçməzdən əvvəl bəzi şəkkaklara çatdırmaq istəyirəm ki, qoy onlar Sevindik Nəsiboğlunun televiziya çıxışlarını milli kitabxanamızda, "Azərkitab"ın tədbir salonlarında keçirilən yığıncaqlarda lentə alınmış çıxışlarını dinləsinlər. O, sözün həqiqi mənasında, çıxış edəcəyi mövzuya məsuliyyətlə hazırlaşır, faktların düzümünə xüsusilə diqqət yetirir. İnanmıram elə bir şəxs olsun ki, onun rəvan, aydın nitqlə məntiqi əsaslara söykənən çıxışlarını heyranlıqla dinləməsin.

Beləliklə, "kimdir Sevindik Nəsiboğlu" sualına cavab vermək istəsək, gərək onun həyatını güzgüləyən faktlardan yan keçməyək: Sevindik Nəsiboğlu (Əliyev Sevindik Nəsib oğlu) 26.07.2008-ci ildə İmişli şəhərində anadan olmuşdur. Əslən Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndindəndir. O, 8-ci sinif şagirdi, dərs əlaçısıdır. Onun şeirləri hələ 2015-ci ildən müxtəlif qəzetlərdə dərc olunmuş, milli radio və televiziyanın, eləcə də digər televiziya kanallarının efirində uşaqlar üçün yayımlanan verilişlərdə dəfələrlə səsləndirilmişdir. Sevindik ictimai fəallığına görə "Həqiqət" Tarixi Araşdırmalar İB-nin "Gənc istedad", "Afia.az" İnformasiya Agentliyinin "Ən yaxşı yazar" və "İlin şagirdi", eləcə də "Azərbaycan XXI əsrə istedadlarla" layihəsi çərçivəsində "Gənc istedad" diplomlarına layiq görülmüşdür. 2018-ci ildə onun "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir, 2020-ci ildə isə "Ulu Naxçıvanım" adlı nəsr, "Könüllərə yol gəzirəm" adlı şeir kitabları nəşr edilmiş, 2019-cu ildən redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğu "Kredo" qəzetində məqalələri, araşdırmaları və şeirləri mütəmadi dərc olunmuş, "Afia.az" və digər xəbər saytları vasitəsi ilə yayımlanmışdır. Vətən müharibəsi başlanan günün ilk anlarında Sevindik qələmini mənfur düşmənin sinəsinə sancılan süngüyə çevirərək Ali Baş Komandanımızın rəhbərliyi ilə Müzəffər ordumuz tərəfindən azad edilmiş torpaqlarımıza, qəhrəman əsgər və zabitlərimizə şeirlər və publisistik yazılar həsr etmişdir. Onun günbəgün yaxınlaşdığımız müqəddəs Zəfərimizə həsr etdiyi "Zəfərin nişanəsi" adlı şeiri Mədəniyyət Nazirliyi tərəfindən keçirilən ədəbiyyat müsabiqəsinin qalibi olmaqla Nazirliyin fəxri fərmanına layiq görülmüşdür. Sevindik Nəsiboğlu 2021-ci ilin iyunundan Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

Mən inanırəm, Sevindik Nəsiboğlu tezliklə Yazıçılar Birliyinin də üzvü olacaq. Digər yaradıcılıq qurumlarında da onu həvəslə görmək istəyənlər tapılacaq. Çünki onun yaradıcılığı çoxşaxəlidir. Poeziyada da, nəsrdə də, hətta jurnalistikanın xəbər janrında da məhsuldarlıqla çalışır, qələmini işləklikdən saxlamır.

Sevindik Nəsiboğlunun yeni kitabı "Möhtəşəm Zəfərin nişanəsi" adlanır. Artıq tarixə qovuşmuş ilin son günlərində bizim 3 saylı Bakı mətbəəsində (Sevindik Nəsiboğlu. MÖHTƏŞƏM ZƏFƏRİN NİŞANƏSİ. "Bakı mətbəəsi" ASC. Bakı-2021. səh.708) işıqlığa çıxdı. Təkcə elə kitabın həcmi heyrət doğuracaq faktdır. Kitabın əsas məziyyətlərini ehtiva edən annotasiyanı xüsusi diqqətlə hazırladıq, istədik ki, bu məlumat mətni oxucuya real bələdçi olsun. Məktəbli şair-publisist, olduqca zəhmətkeş yazar Sevindik Nəsiboğlu "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabı ilə oxucularla sayca 5-ci dəfə görüşür. Müəllifin "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir kitabları 2018-ci ildə, "Ulu Naxçıvanım" adlı nəsr və "Könüllərə yol gəzirəm" adlı şeir kitabları isə 2020-ci ildə nəşr edilmişdir. Bu kitabların hər biri müəllifin kimliyini görmək, onun daxili aləmini tədqiq etmək üçün kifayət edəcək gücdədir. 700-dən çox səhifədə qərar tutmuş "Möhtəşəm Zəfərin nişanəsi" adlı kitabın əsas mövzusunu 1-ci Qarabağ müharibəsi, atəşkəs dövründə, 2016-cı ilin aprel və 2020-ci ilin Tovuz döyüşləri, nəhayət, 44 günlük Vətən müharibəsi zamanı canlarını qurban vermiş şəhidlərimiz, sağlamlığını itirmiş qazilərimiz, müharibə iştirakçıları haqqında həssaslıq, vətənpərvərlik, kədər içərisində qürur və sevinclə qələmə alınmış, Vətən oğullarının qısa, lakin olduqca mənalı və qürurverici həyat və döyüş yollarından bəhs edən publisistik məqalələr, məqalə-şeirlər, şeirlər, düşmən tapdağından azad edilmiş şəhər, qəsəbə və kəndlərimizə, şanlı ordumuza, türkçülüyə, qəhrəmanlığa həsr edilmiş zəfər ətirli şeirlər, anım tədbirlərində çıxışlar, eləcə də 1992-2020-ci illərdə Vətən uğrunda canlarını fəda etmiş qəhrəman Azərbaycan oğulları haqqında müəllif tərəfindən yaradılmış Vikipediya səhifələri təşkil edilmişdir. Belə ki, ümumilikdə, 76 şəhid, 2 qazi və 2 müharibə iştirakçısı haqqında məqalə və şeir, azad edilmiş ərazilərimiz və vətənpərvərlik mövzusunda 40-dək şeir və 365 Vikipediya səhifəsi kitabda yer almışdır. Kitabı 400-dən çox Vətən oğulları - şəhidlərimiz, qazilərimiz və müharibə iştirakçıları haqqında ensiklopedik toplu kimi də qəbul etmək olar. Kitabda yer almış bir çox yazılar müəllifin redaksiya heyətinin üzvü və ən gənc müxbiri olduğu "Kredo" qəzetində, "Afia.az" saytında və digər xəbər saytlarında dərc edilmişdir.




Vətənini, millətini, torpağını, müzəffər ordusunu, Vətən fədailərini sevən hər bir şəxs üçün bu kitabın maraqla qarşılanacağına Möhtəşəm Zəfərimiz kimi inanırıq. İndi yenidən həmin annotasiya mətninə baxıram və düşünürəm ki, bu mətndə biz Sevindik Nəsiboğlunun zəhmətini qədərincə qiymətləndirə bilmişikmi? Hər halda məhdud imkan daxilində biz Sevindik Nəsiboğlunun sözün həqiqi mənasında möhtəşəm olan kitabına ilkin səmimi rəyimizi əsirgəmədik.

Kitabın redaktoru, şair-publisist Əli Rza Xələfli də Sevindik Nəsiboğlunun həm istedadını qədərincə dəyərləndirə bilir, həm də onun inkişafı üçün səylərini əsirgəmir. Yazılarını redaktə edir, kitablarının nəşrə hazırlanmasında yaxından köməkliyini əsirgəmir. Əgər belə demək mümkündürsə, o, Sevindik Nəsiboğlunun yaradıcılığını yaxşı bilir. Ona görə də onun yaradıcılıq məziyyətlərini "Möhtəşəm Zəfərin nişanəsi" kitabına yazdığı "ön söz"də həssaslıqla qiymətləndirib: *"Dünyada belə fenomenlər olub. Çox kiçik yaşlarından tanınan rəssamlar, musiqiçilər, hətta riyaziyyatçılar belə var ki, dünya mənəvi irsində öz payları ilə əbədi yaşayırlar. Sevindik Nəsiboğlunun qeyri-adiliyinə təəccüblənənlər üçün bir fakt da əlavə edim. Bizim kəndimizdən həm də qohumumuz olan iki uşaq elə Sevindik yaşda Amerika universitetlərinin tələbələridir. Doğrudur, onlar riyaziyyat sahəsində parlayırlar. Amerikada yayımlanan verilişlərdə bu yeniyetmələrin təxəyyül, ədəbi-publisistik özünüifadə imkanları kifayət qədər görünür. Bir qədər obrazlı desək, biz öz əjdahamızla nə üçün fəxr etməyək?! 44 günlük müharibənin zəfəri, əlbəttə, birinci növbədə ordumuzun və möhtəşəm siyasi iradə və hərbi rəhbərlik gücü göstərən Ali Baş Komandanımızın qələbəsidir. Söz yox ki, bu müharibədə xalqımız da səfərbər olunmuşdu. Böyük birlik Qarabağın azadlığı naminə öz gücünü göstərirdi. Sadə zəhmət adamından tutmuş söz-sənət adamlarına qədər hər kəs bu müharibədə iştirak edirdi. Bu bir il Sevindik Nəsiboğlunun yazdıqlarını, yaratdıqlarını gözdən keçirdikcə qəlbim qürur hisis ilə döyünür. 1000 səhifədən çox kitabın müəllifi S.Nəsiboğlu, əgər belə demək mümkünsə, müharibənin gündəliyini yazdı. Onun iti və diqqətli nəzərləri sanki göy üzündən od tutub yanan bütün Qarabağı izləyirdi. Onun iti nəzərlərindən heç nə yayınmırdı. Ordumuz qələbəyə doğru yeridikcə Sevindik Nəsiboğlu da öz sözü ilə ordumuzu müşayiət edirdi. Bu müharibə həm də Azərbaycan xalqının yetirdiyi oğulların, ordumuzun igid əsgərlərinin necə vətənsevər olduqlarını da dünyaya nümayiş etdirdi. Ali Baş Komandanın çıxışlarında qeyd etdiyi kimi Azərbaycan əsgərləri ölümün üstünə yeriyirdi və elə bu da düşməni vahiməyə salırdı. Ölümə gedən oğullar şəhidlik şərbəti içdikcə ölməzliklərini qazanırdılar, əbədiyyət axtarırdılar. Əslində elə S.Nəsiboğlunun da məramı, məqsədi budur ki, öz yazıları ilə bu qəhrəmanların adlarını əbədiləşdirsin, onlara əbədiyaşarlıq bəxş etsin. Beləliklə, S.Nəsiboğlunun "Möhtəşəm zəfərin nişanəsi" kitabı zəfər yolunun xronikası, müharibənin gündəliyi və qələbəyə möhtəşəm zəfər tağı kimi araya-ərsəyə gəldi. Onun yeniyetmə qəlbinin hələ uşaqlığından ayrılmayan duyğularının sözə çevrilən rəngləri vətən sevgisinin solmayan çiçəkləri kimi səhifələrə yığıldı".* Bu qeydlər göstərir ki, Əli Rza Xələfli Sevindik Nəsiboğluna münasibətdə ustadlıq borcunu ləyaqətlə yerinə yetirir. Onun yazısındakı həssaslıq məqamları əslində digər redaktorlar üçün də örnək olmağa layiqdir.

Yuxarıda qeyd etmişdim ki, istedadların inkişafı onlara münasibətdən çox asılıdır. Doğmalıq, isti münasibət, canlı ünsiyyət bir çox problemləri vaxtında həll edir. Zənnimcə, Sevindik Nəsiboğlunun "Möhtəşəm Zəfərin nişanəsi" kitabı Azərbaycan ordusunun zəfərinə çox layiqli abidədir. Biz gələcəyə əslində belə kitabların düşüncəmizdə yaratdığı zəfər tağlarının altından keçib gedirik. Ona görə də "Möhtəşəm Zəfərin nişanəsi" kitablar layiq olduğu dəyəri almalıdır. Tam inamımla deyirəm ki, bu kitab yüksək ödüllərə layiqdir.

Gələcək nəsillər bizi necə xatırlayacaq - bu, cavabı məlum olan ritorik bir sualdır. Yəni bu günün gənc istedadlarına, gələcəyin sahibi olacaq uşaqlara necə yanaşırıqsa, onlar da böyüyəndən sonra bizi əməlimizə layiq dəyərlə anacaqlar.

Cəmiyyətin yaddaşı daş üzərindəki yazıya bənzəyir; heç nəyi unutmur, heç nəyi salnamədən silmir.

Mən Sevindik Nəsiboğlunu onun istedadının parlaq işığında necə görürəmsə, elecə də oxuculara çatdırmaq istədim. Qalanı gələcək tədqiqatçıların işidir. İstedadların parlaq işığında... cazibə var. İstedadların işığı gözləri qamaşdırmır.

**Şəddat CƏFƏROV**
**07.01.2022**